*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 05 iyun tarixli 5/22 saylı Qərarı ilə təsdiq edilmiş, 2014-cü il 13 oktyabr tarixli 2/21 saylı və 2018-ci il 22 noyabr tarixli 17/92 saylı qərarları ilə dəyişikliklər edilmişdir.*

# Məntəqə seçki komissiyasının formalaşdırılması qaydaları haqqında

# T Ə L İ M A T

Məntəqə seçki komissiyalarının formalaşdırılması qaydaları Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 19.7-ci, 22-ci, 36-cı maddələri ilə və bu Təlimatla müəyyən edilir.

## 1. Məntəqə seçki komissiyasının təşkili və səlahiyyət müddəti

1.1. Məntəqə seçki komissiyaları müvafiq seçki komissiyaları tərəfindən 6 üzvdən ibarət tərkibdə təşkil edilir.

1.2. Məntəqə seçki komissiyaları bilavasitə seçkilərdən (referendumdan) əvvəl yaradılırsa, onlar səsvermə gününə azı 40 gün qalmış təşkil edilməlidir.

1.3. Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus olan sektorunda yerləşən neft platformalarında, səsvermə günü üzən gəmilərdə (seçicilərin sayı 50-dən artıq olduqda), seçicilərin müvəqqəti olduqları yerlərdə (xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində) məntəqə seçki komissiyaları Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) müəyyən etdiyi qaydada səsvermə gününə ən azı 40 gün qalmış, müstəsna hallarda isə səsvermə gününə azı 5 gün qalmış yaradıla bilər. Belə məntəqə seçki komissiyaları həmin yerlər üzrə seçki dairəsi dairə seçki komissiyaları tərəfindən yalnız referendum və Prezident seçkilərinin keçirilməsi üçün yaradılır.

1.4. Yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə məntəqə seçki komissiyalarının yaradılmasına yalnız o halda yol verilir ki, səsvermə günü hərbi qulluqçuların ümumi seçki məntəqələrinə ictimai nəqliyyatla çatdırılması üçün 1 saatdan çox vaxt lazım olsun və hərbi qulluqçuların ümumi sayı 50-dən artıq olsun. Belə hallarda məntəqə seçki komissiyaları səsvermə gününə ən azı 40 gün qalmış, müstəsna hallarda isə müvafiq dairə seçki komissiyasının qərarına uyğun olaraq hərbi hissələrin komandirləri tərəfindən səsvermə gününə azı 5 gün qalmış yaradılır. Bu qaydalar sərhəd mühafizə orqanlarının hərbi qulluqçuları və hərbi münaqişə zonasında yerləşdirilən hərbi qulluqçular, habelə Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi hallarda xüsusi rejim şəraitində qulluq edən hərbi qulluqçular üçün onların hərbi hissələrində yaradılan məntəqə seçki komissiyalarına da şamil olunur.

1.5. Bu Təlimatın 1.3-cü və 1.4-cü bəndlərində nəzərdə tutulmuş seçicilərin sayı 100-dən az olan və 50-dən çox olan, habelə yolu çətin keçilən yerlərdə yerləşən seçki məntəqələrində məntəqə seçki komissiyası seçicilərin ümumi yığıncağında açıq səsvermə yolu ilə seçilir. Bu halda məntəqə seçki komissiyasının tərkibi dairə seçki komissiyası tərəfindən təsdiqlənir.

1.6. Səsvermə günü xarici dövlətlərdə olan seçicilərin səs verməsi və səslərinin hesablanması üçün məntəqə seçki komissiyaları seçicilərin olduğu ərazilərdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsul idarələrinin rəhbərləri tərəfindən konsul qeydiyyatına durmuş seçicilərin sayı 50-dən çox olduqda həmin qurumların əməkdaşları və seçicilərdən yalnız referendum və Prezident seçkilərinin keçirilməsi üçün səsvermə gününə azı 30 gün qalmış yaradılır.

1.7. Məntəqə seçki komissiyalarının səlahiyyət müddəti 5 ildir.

1.8. Məntəqə seçki komissiyası üzvlərinin səlahiyyətləri onların təyin edilməsi haqqında qərarın qüvvəyə minməsindən sonra başlanır və komissiyanın səlahiyyət müddəti ilə məhdudlaşır.

1.9. Məntəqə seçki komissiyası üzvlərinə dairə seçki komissiyası tərəfindən müvafiq vəsiqə verilir.

## 2. Məntəqə seçki komissiyası üzvlüyünə namizədliyin irəli sürülməsi

2.1. Məntəqə seçki komissiyasının 2 üzvünün namizədliyi deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı dairə seçki komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən, 2 üzvünün namizədliyi deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları dairə seçki komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən, digər 2 üzvünün namizədliyi isə heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını dairə seçki komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən təqdim edilir.

2.2. Namizədlər müvafiq seçki dairəsinin ərazisində daimi yaşayan Azərbaycan Respublikası vətəndaşları olmalıdırlar. Məntəqə seçki komissiyasının 2 nəfərdən çox üzvü bələdiyyə qulluğunda ola bilməz.

2.3. Məntəqə seçki komissiyalarının üzvlüyünə namizədləri və onlarla birlikdə əvəzedici üzvləri müvafiq siyasi partiyaların yerli təşkilatları da partiya nizamnaməsinə uyğun olaraq müəyyən edə və siyasi partiyaları dairə seçki komissiyasında təmsil edən komissiyanın üzvlərinə təqdim edə bilərlər. Siyasi partiyaların yerli təşkilatları qərar qəbul etdikdən sonra təsdiqlənmiş qərar, protokol və namizədlərin razılıq ərizələri müraciətlə birlikdə müvafiq dairə seçki komissiyasına göndərilir və müvafiq olaraq deputatları Milli Məclisdə çoxluq və azlıq təşkil edən dairə seçki komissiyasının üzvlərinə təqdim edilir.

2.4. Məntəqə seçki komissiyalarının üzvlüyünə namizədləri heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını təmsil edən dairə seçki komissiyası üzvlərinə seçicilər də (seçicilərin təşəbbüs qrupları da) təklif edə bilərlər.

2.5. Hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyasının üzvlüyünə namizəd irəli sürmək üçün azı 10 nəfərdən ibarət seçicilərin təşəbbüs qrupu yaradılır. Bunun üçün onlar öz yığıncaqlarını keçirməlidirlər. Təşəbbüs qrupunun bütün üzvləri müvafiq seçki məntəqəsinin ərazisində yaşamalıdırlar. Seçicilərin təşəbbüs qrupunun üzvləri və məntəqə seçki komissiyasının üzvlüyünə namizədlər bitərəf olmalıdırlar. Təşəbbüs qrupu yaratmaq istəyən seçicilər müvafiq qurumlara yığıncaq keçirmək üçün yer ayrılması barədə yazılı müraciət edə bilərlər. Seçicilərin təşəbbüs qrupunun yığıncağı seçicilərin yaşayış yeri üzrə, habelə icra və bələdiyyə qurumlarının, o cümlədən digər hüquqi şəxslərin ərazi və binalarında keçirilə bilər. Müvafiq yer müəyyənləşdirildikdən sonra təşəbbüs qrupu yaratmaq istəyən seçicilərə yığıncağın keçirilməsi üçün ayrılmış yer və vaxt barədə məlumat verilir.

2.6. Yığıncaqda aşağıdakı məsələlər müzakirə olunur:

2.6.1. seçicilərin təşəbbüs qrupunun yaradılması;

2.6.2. müvafiq məntəqə seçki komissiyasının həlledici səs hüquqlu üzvlüyünə namizədin irəli sürülməsi;

2.6.3. məntəqə seçki komissiyasının əvəzedici üzvlüyünə namizədin irəli sürülməsi.

2.7. İclasda iştirak edən hər bir seçicinin soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi iclas protokolunda göstərilir.

2.8. İclasda müvafiq məntəqə seçki komissiyasının həlledici səs hüquqlu üzvlüyünə namizədin və əvəzedici üzvünün namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilir. Qəbul edilmiş qərar və iclasın protokolu iclasın sədri və katibi tərəfindən imza edilməklə təsdiqlənir.

2.9. İclas idarə, müəssisə və ya təşkilatda keçirilirsə, seçicilərin təşəbbüs qrupunun iclasının qərarı və protokolu həmin qurumların möhüründən, seçicilərin yaşayış yeri üzrə keçirilirsə, mənzil-istismar sahəsinin və ya bələdiyyənin möhüründən istifadə edilməklə təsdiqlənə bilər. Qərar və protokolun notariat qaydasında təsdiq olunması da mümkündür.

2.10. Seçicilərin təşəbbüs qrupunun qərarı, protokolu və namizədlərin razılıq ərizələri müvafiq müraciət ilə birlikdə dairə seçki komissiyasına göndərilir. Bu qaydada irəli sürülən namizədlər barəsində sənədlər heç bir siyasi partiyaya mənsub olmayan deputatları təmsil edən dairə seçki komissiyasının üzvlərinə təqdim edilir.

2.11. Məntəqə seçki komissiyasının həlledici səs hüquqlu üzvlərilə birlikdə eyni şərtlərlə əvəzedici üzvlərin də namizədliyi irəli sürülür.

2.12. Aşağıda göstərilən şəxslər məntəqə seçki komissiyasının üzvü kimi fəaliyyət göstərə bilməzlər:

2.12.1. referendum üzrə təşviqat qrupu yaradılmasının təşəbbüsçüləri, namizədlərin, qeydə alınmış namizədlərin, namizəd irəli sürmüş siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələri, vəkil edilmiş şəxsləri, müşahidəçilər, seçki komissiyalarının məşvərətçi səs hüquqlu üzvləri, eləcə də namizədlərin, qeydə

alınmış namizədlərin bilavasitə tabeliyində olan şəxslər, yuxarıda göstərilən şəxslərin Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yaxın qohumları, həyat yoldaşları və həyat yoldaşlarının yaxın qohumları (uşaqlar, valideynlər, övladlığa götürülənlər, qardaşlar, bacılar, nəvələr, babalar, nənələr);

2.12.2. dövlət hakimiyyəti orqanlarının və bələdiyyələrin seçkili və ya vəzifəli şəxsləri;

2.12.3. Azərbaycan Respublikasının vətəndaşlığına xitam verilmiş şəxslər;

2.12.4. xarici ölkə vətəndaşları;

2.12.5. haqqında məhkəmənin ittiham hökmü qanuni qüvvəyə minmiş şəxslər;

2.12.6. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında fəaliyyət qabiliyyəti olmayan, məhdud fəaliyyət qabiliyyətli, xəbərsiz itkin düşmüş və ya ölmüş hesab edilən şəxslər;

2.12.7. digər seçki komissiyasının üzvləri (eyni vaxtda digər komissiyanın üzvü olduqda);

2.12.8. siyasi partiyanın üzvləri;

2.12.9. seçki qanunvericiliyini əvvəllər pozmuş və yuxarı seçki komissiyasının qərarı ilə seçki komissiyasının tərkibindən xaric edilmiş şəxslər;

2.12.10. əvvəllər seçki qanunvericiliyini pozmaları məhkəmə qərarı ilə təsdiq edilmiş şəxslər;

2.12.11. yaşı 18-dən az olan şəxslər.

## 3. Namizədlərin məntəqə seçki komissiyasının üzvlüyünə təyin olunması qaydası

3.1. Milli Məclisdə azlıq və çoxluq təşkil edən siyasi partiyaları, həmçinin heç bir siyasi partiyaya mənsub olmayan deputatları dairə seçki komissiyalarında təmsil edən komissiya üzvləri təqdim olunan sənədləri araşdırır, razılaşdıqları təqdirdə, onların namizədliyini məntəqə seçki komissiyasında irəli sürür və qərar qəbul olunması üçün dairə seçki komissiyasının iclasına çıxarırlar. Məsələnin dairə seçki komissiyasının iclasında müzakirə edilməsi əsasında komissiya bu barədə müvafiq qərar qəbul edir.

## 4. Yekun müddəalar

4.1. Bu Təlimat qüvvəyə mindiyi gündən Mərkəzi Seçki Komissiyasının 9 avqust 2008-ci il tarixli 10/49-2 saylı Qərarı ilə təsdiq edilmiş “Məntəqə seçki komissiyalarının formalaşdırılması qaydaları haqqında” Təlimat qüvvədən düşmüş hesab edilir.